## ■ Oruç Dadaşi Elman

### Çəpərimdə

Gözlərim bulaqtək, dolur hardasan
Qəlbimin çiçəyi, solur hardasan
Olmazlar, day indi olur hardasan
Həsrətdir atlanan göz çəpərimdə

Yazdığım şeirlər yerinə düşmür
Xəyalım qorxudan, dərinə düşmür
İstiyə tablaşmır, sərinə düşmür
Sərgərdan qalmışam, söz çəpərimdə

Yollardan asılı baxışım darda
Xalçada yarımçıq naxışım darda
Şimşəyim sönüküb, çaxışım darda
Səngiyib ocağım, köz çəpərimdə

Hər yana baxdıqca, özümü gördüm
Güzgüdə saralan gözümü gördüm
Hər zaddan çarəsiz, dözümü gördüm
Bir deyən olmadı, döz çəpərimdə

Gözlərim daşdıqca, yaş altda qaldı
Bağrıma daş aldım, daş altda qaldı
Ürəyim, bir yazıq baş altda qaldı
Ay *Elman* dərdimi, çöz çəpərimdə